

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 dekabr 2024-cü il №93 (2904) https://mod.gov.az Qiyməti 30 qəpik

## Xalqımızın Ümummilli Lideri - Əbədiyaşar Komandan

*Dünya şöhrətli siyasətçi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əbədiyyətə qovuşmasından 21 il ötür. 2003-cü ilin 12 dekabrında düz 21 il öncə Əbədiyaşar Ali Baş Komandan, dahi rəhbərimiz dünyaya əbədi gözlərini yumdu. Ulu Öndərin müdrikliklə və uzaqgörənliklə təlatümlərdən, fırtınalardan çıxardığı Azərbaycanımız, xalqımız, Vətənimiz işıqlı bir ömrün nuruna qərq olaraq əbədiyaşarlılıq qazandı. Bu günlər xalqımız Dahi Rəhbərin, Ulu Öndərin əziz, işıqlı xatirəsini dərin ehtiramla anır, məzarını ziyarət edir.*



Hər kəsə yaxşı məlumdur ki, müasir, müstəqil ordumuzun inkişaf tarixi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Xalq Cümhuriyyəti süqut etdikdən sonra ölkəmizdə ordu quruculuğu prosesi dayandı. Yalnız Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonra onun müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesi başlandı. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində aparılan işlər ölkəmizdə mütəşəkkil, qüdrətli ordu yaratmağa imkan verdi, onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yaratdı.

Ulu Öndər Heydər Əliyevin söylədiyi "Ordu olmalıdır, ona görə yox ki, biz hansısa bir dövlətə hücum etmək, kiminsə torpağını zəbt etmək istəyirik. Yox. Biz sülhsevər dövlətik. Biz heç kəsin torpağına göz dikməmişik. Biz öz torpaqlarımızı azad etmək, ölkəmizin ərazi bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını təmin etmək istəyirik. Azərbaycan xalqının ali məqsədi bundan ibarətdir. Azərbaycan dövlətinin apardığı siyasət, əməli fəaliyyət bundan ibarətdir. Bunun üçün və gələcəkdə dövlət müstəqilliyimizi qoruyub saxlamaq üçün güclü ordumuz olmalıdır. Biz ordu quruculuğu işi ilə məşğul oluruq" fikirlərini bu gün də qürurla xatırlayırıq.

Ulu Öndər Heydər Əliyev ordu quruculuğunda ən böyük uğurlardan birinə - 1971-ci ildə böyük zəhmətlər bahasına, müdrik və uzaqgörən siyasəti nəticəsində Azərbaycanda hərbi kadrlar hazırlayan məktəbin - görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi liseyin yaradılmasına nail oldu. Bu məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, azərbaycanlı zabit kadrlarının hazırlanmasına möhkəm zəmin yaratmışdı. Azərbaycan müstəqilliyini bərpa edəndən sonra C.Naxçıvanski adına Hərbi Lisey ordu quruculuğunun əsas bazalarından birinə çevrildi. Ulu Öndər Heydər Əliyevin sayəsində azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində oxuması, eləcə də keçmiş SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunması mümkün oldu.

Müstəqilliyimizin bərpasının ilk illərində ölkəmizə rəhbərlik edənlər Ermənistanın torpaqlarımızı işğal etdiyi bir vaxtda ordu quruculuğu kimi vacib və məsuliyyətli işin öhdəsindən gələ bilmədilər. Həmin dövrdə nizami ordudan əsər-əlamət yox idi. Müxtəlif hərbi dəstələr ayrı-ayrı qüvvələr tərəfindən idarə olunurdu. Bundan istifadə edən düşmənin torpaqlarımıza təcavüzü getdikcə daha geniş miqyas alırdı. Azərbaycan müstəqilliyinin itirilməsi təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir ağır vaxtda xalqın çağırışı ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev başıpozuq silahlı dəstələri ləğv edərək, nizami ordu quruculuğu prosesinə start verdi.

1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycan Milli Ordusunun formalaşması daha da sürətləndi. Həyata keçirilən uğurlu siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına və döyüş ruhunun yüksəldilməsinə xüsusi diqqət ayrıldı.

26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günüdür. Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı 1918-ci ilin 26 iyun tarixi Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

Ulu Öndər Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında Fərman imzalamışdı. Akademiyanın təsis olunması hərb sahəsində milli kadr ehtiyatının formalaşması prosesinin keyfiyyət etibarilə yeni inkişaf mərhələsi sayıla bilər. 20 avqust 2001-ci il tarixli Fərman ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər müvafiq olaraq Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmışdı.

NATO ilə əməkdaşlığa gəlincə, 1990-cı illərin ortalarından başlayaraq Azərbaycanın NATO ilə sıx və səmərəli əməkdaşlığı ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə, Silahlı Qüvvələrimizin modernləşdirilməsinə, müasir standartlara uyğunlaşdırılmasına səbəb oldu. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına, bu əməkdaşlığın davamı olaraq 1996-cı ildə "Planlaşdırma və analiz prosesi" proqramına, 2001-ci ildə isə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na qoşuldu. İl ərzində 2 mindən çox Azərbaycan hərbçisi NATO proqramlarında və digər ikitərəfli əməkdaşlıq proqramlarında iştirak edərək ən son hərbi yenilikləri mənimsədilər. Beynəlxalq sülhməramlı qüvvələrin tərkibində Kosovoda, Əfqanıstanda və İraqda zəngin təcrübə qazanan və öz standartlarını NATO standartlarına uyğunlaşdıran Azərbaycan Ordusu modern orduya çevrildi.

Ulu Öndər Heydər Əliyevin ordu haqqında söylədiyi "Hər bir müstəqil dövlətin ordusu dövlətin əsas atributlarından biridir", "Biz müstəqil dövlətik. Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir", "Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır. Məhz bu keyfiyyətləri özündə cəmləşdirən, əks etdirən Azərbaycan Ordusunun döyüşçüsü ordumuzu möhkəmləndirə bilər və hər an qələbəyə nail ola bilər", "Orduda xidmət etmək hər bir azərbaycanlının şərəfli borcudur. Orduda xidmət edən, əsgərlik borcunu yerinə yetirən gənclər xalqımızın, cəmiyyətimizin içərisində hörmətli, dəyərli insanlardır. Həyatını bu şərəfli peşəyə - ölkəni, Vətəni qorumaq peşəsinə həsr edən zabitlər, hərbçilər Azərbaycan xalqının daim hörmət və ehtiramını qazanacaqlar", "Ordu xalqın bir hissəsidir. Xalqla ordunun birliyi həmişə dövlətin də qüdrətini təmin edir, orduya daha çox güc verir, xalqın da öz ordusuna daha çox etibar etməsinə əsas verir", "Etibarlı, güclü, Vətənini, torpağını müdafiə etməyə qadir silahlı qüvvələri olmayan ölkənin müstəqilliyi də etibarlı ola bilməz", "Müstəqillik dövründə qazandığımız ən mühüm nailiyyətlərdən biri milli ordumuzun yaradılması olmuşdur", "Azərbaycan əsgəri, Azərbaycan zabiti gərək yüksək mənəviyyata malik olsun. Azərbaycan xalqının yüksək mənəvi dəyərləri ilə yaşasın. Vətənpərvərliyi, Vətəni sevməyi, Vətən yolunda şəhid olmağı daim gözünün önündə saxlasın", "Güclü ordu dövlətin müstəqilliyinin təminatçısıdır, qarantıdır" fikirləri bu gün də qürur və fəxrlə xatırlanır.

**(Ardı 2-ci səhifədə**

## Azərbaycan müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Gülerə başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Cari ilin 9 dekabr tarixində, İsparta vilayətində təlim uçuşu zamanı UH-1 tipli helikopterin qəzaya uğraması nəticəsində altı hərbi qulluqçunun şəhid olması barədə xəbər məni dərindən kədərləndirdi.

Sizin acınız bizim də acımızdır.

Baş vermiş qəzada şəhid olmuş qəhrəman türk hərbçilərinə rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin".

# Xalqımızın Ümummilli Lideri - Əbədiyaşar Komandan



(Əvvəli 1-ci səhifədə

Bu gün onu da əminliklə deyə bilərik ki, ölkəmizdə ordu quruculuğu prosesi Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində tamamilə yeni mərhələyə qədəm qoydu. Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ordu quruculuğunu prioritet məsələ hesab edərək, Azərbaycanın müdafiə qüdrətinin artırılmasına nail oldu. Şəxsi heyətin peşəkarlığının, döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Azərbaycan Ordusunun ən müasir silah və texnika ilə təchizatı daim ön planda saxlanıldı. Məhz Prezident cənab İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Azərbaycan Ordusu qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. Təsadüfi deyil ki, nüfuzlu "Global Fire Power" mərkəzinin 55 göstərici əsasında hazırladığı hesabatda Azərbaycan Ordusu Cənubi Qafqazda birinci, dünyada ilk əlli ordu sırasında yer aldı.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 2020-ci ilin 27 sentyabrında əks-hücum əməliyyatı ilə başlayan 44 günlük Vətən müharibəsində düşmən üzərində Qələbə qazanaraq tariximizə yeni şanlı səhifələr yazdı. Döyüşlərdə bir addım da geri çəkilməyən Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr vuraraq, 44 gün ərzində 5 şəhər, 4 qəsəbə və 300-dək kəndi işğaldan azad etdi. Düşmənin tam məğlubiyyəti ilə nəticələnən bu müharibə noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə üçtərəfli bəyanat imzalamaları ilə başa çatdı. Bəyanata uyğun olaraq noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları Azərbaycana təhvil verildi. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu.

"Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq" bəyan edən Müzəffər Ali Baş Komandan, eyni zamanda, "Mən xoşbəxt insanam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik!" - deyə Azərbaycan xalqına qürurlu anlar yaşatdı və Böyük Zəfərimizin xoş müjdəsini çatdırdı.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Hərbi Prokurorluqda Ulu Öndər Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib

Dekabrın 9-da Hərbi Prokurorluqda dünya şöhrətli siyasətçi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Hərbi Prokurorluğun inzibati binasındakı "Heydər Əliyev guşəsi"ndə, Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülərək, böyük insanın parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Tədbirdən əvvəl mərasim iştirakçıları nəhəng şəxsiyyətin, eləcə də ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda edən bütün şəhidlərimizin əziz və unudulmaz xatirələrini bir dəqiqəlik sükutla anıb, döyüşlərdə sağlamlığını itirənlərə şəfa diləyiblər.

Mərasimdə çıxış edən Baş prokurorun müavini - hərbi prokuror ədliyyə general-leytenantı Xanlar Vəliyev qəlbi daim Vətən eşqi ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan, millətini zamanın sərt sınaqlarından yüksək məharətlə çıxaran, istiqlal yolumuzu və istiqbalımızı işıqlandıran Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixindəki və beynəlxalq arenadakı rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən ətraflı danışıb. Hərbi prokuror bildirib ki, şərəfli ömrünü ölkəmizin hərtərəfli inkişafına və millətimizin parlaq gələcəyinə həsr edən Ümummilli Lider Heydər Əliyev dövlətçiliyin ideoloji-siyasi əsaslarını yaratmaqla, xalqı əsl müstəqilliyə qovuşduraraq hafizələrdə əbədiyaşarlıq qazanıb: "Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinin elan edilməsi üçün real əsaslar, yeni suveren bir ölkə kimi qarşılaşa biləcəyi mühüm məsələlərin həlli üsulları hələ Ulu Öndər Heydər Əliyevin sovet hakimiyyəti illərində respublikamıza birinci rəhbərliyi dövründə işlənib hazırlanıb. Dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin xalqın israrlı tələbi ilə qayıdışından sonra vəziyyət müsbətə doğru dəyişib. Azərbaycanın müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən bu böyük qayıdışdan sonra vətəndaş müharibəsinin, eləcə də müstəqilliyimizin itirilməsi təhlükəsinin qarşısı qətiyyətlə alınıb, cinayətkar dəstələr zərərsizləşdirilib, separatçı meyillərə son qoyulub, ölkənin iqtisadi və siyasi böhrandan xilasını təmin edən digər zəruri tədbirlər görülüb. Bununla da Azərbaycan tərəqqi yoluna qədəm qoyub. Bu il Ulu Öndər Heydər Əliyevin ilk dəfə hakimiyyətə gəlişinin 55-ci ildönümüdür. Dahi insanın müqəddəs vətənpərvərlik missiyası ilə bağlı maarifləndirmə ilə əlaqədar Hərbi Prokurorluq tərəfindən Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının, Fövqəladə Hallar Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçuları, eləcə də müxtəlif dövlət qurumları, şəhər və rayon rəhbərlikləri ilə birlikdə 20-dən artıq tədbir keçirilib".







Ədliyyə general-leytenantı X.Vəliyev bildirib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə son 21 il ərzində ölkəmizdə misilsiz işlər görülüb, çoxşaxəli köklü islahatlar həyata keçirilib, bütün istiqamətlərdə misli görünməmiş uğurlar əldə olunub: "Ölkəmizdə bu il keçirilən COP29 dövlətimizin gücünün və dövlət rəhbərinin nüfuzunun bariz nümunələrindən biridir. Prezident İlham Əliyevin dərin zəkası, mükəmməl rəhbərliyi və xalqın müdrikliyi, əzmkarlığı, eləcə də hakimiyyətlə xalq arasında olan sıx bağlılığın sayəsində iqtisadiyyatımız daha da güclənib, ölkəmiz hərtərəfli inkişaf edib, qüdrətli Silahlı Qüvvələrimiz formalaşıb. Eyni zamanda, dövlətimizin beynəlxalq nüfuzu daha da artmaqla, dünya ölkələri sırasında mövqeyi hərtərəfli möhkəmlənib. Bütün bunlar isə Vətən müharibəsindəki möhtəşəm qələbəmizi də şərtləndirib, nəticədə hərbi və siyasi-diplomatik yolla 30 ilə yaxın müddətdə düşmən tapdağında olan dədə-baba torpaqlarımız işğaldan azad edilib. Bütün dünyada baş verən neqativ proseslərə, o cümlədən postpandemiya dövrünə, eləcə də müharibədən çıxmış ölkə olmağımıza rəğmən Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin eyni templə hərtərəfli qüdrətlənməsi və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı bu gün də uğurla təmin edilir. Əldə olunan uğurlarda, eləcə də ölkəmizin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində zəngin biliklərə, iti düşüncəyə və yüksək idarəçilik qabiliyyətinə malik olan, sadəliyi, səmimiliyi və insanpərvərliyi ilə xalq məhəbbəti qazanmış Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın müstəsna fəaliyyəti mühüm əhəmiyyət kəsb edir".

Daha sonra Milli Məclisin deputatları Vasif Qafarov, Səbinə Salmanova, Tural Gəncəliyev, Nigar Məmmədova, Pərvanə Vəliyeva və digər çıxışçılar Ümummilli Lider Heydər Əliyevin şərəfli və mənalı ömür yolundan, o cümlədən zəngin və çoxşaxəli fəaliyyətindən bəhs ediblər.

Prezident İlham Əliyevə xalqda olan sonsuz inamdan irəli gələn bənzərsiz sevgidən bəhs etməklə çıxışını yekunlaşdıran hərbi prokuror Xanlar Vəliyev bildirib ki, Hərbi Prokurorluğun kollektivi millətimizin və dövlətimizin maraqlarına xidmət edən Ulu Öndər siyasətinin Prezidentimiz tərəfindən uğurla davam etdirilməsində, onun rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edərək dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunmasında, qanunun aliliyinin təmin edilməsində, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsində üzərinə düşən vəzifələri layiqincə icra etməklə Azərbaycanın firavan gələcəyinin təminatı olan siyasəti daim dəstəkləyəcək.

Çıxışının sonunda X.Vəliyev qeyd edib ki, şərəfli ömrünü millətinə həsr edərək Vətən qarşısında müstəsna xidmətlər göstərməklə Azərbaycan xalqının Ümummilli Lideri adını qazanmış dünya siyasətinin parlaq siması Ulu Öndər Heydər Əliyev tarixdə və azərbaycanlıların qəlbində əbədi olaraq qalacaq və nəhəng tarixi şəxsiyyət daim dərin ehtiramla anılacaq.

# “Konqres Azərbaycanda revmatologiyanın inkişafına yeni təkan verəcək”

*Bakıda yerli və qardaş Türkiyədən olan təcrübəli həkimlərin iştirakı ilə Azərbaycan Milli Revmatoloji Konqresi keçirildi.*



Açılış mərasimində əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Müdafiə Nazirliyinin Tibb İdarəsinin rəisi tibb xidməti polkovniki Anar İsmayılov çıxış edərək, konqres iştirakçılarını salamladı, həkimlər arasında belə tədbirlərin keçirilməsinin təcrübə mübadiləsi və yeni metodların tətbiqi baxımından vacibliyini qeyd etdi.

Azərbaycan Milli Revmatoloji Konqresinin təşkilat komitəsinin sədri, Azərbaycan Revmatoloqlar İctimai Birliyinin üzvü və Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının revmatologiya bölməsinin baş ordinatoru tibb xidməti mayoru Məğrur Məmmədov bu tədbirin revmatologiya sahəsindəki yenilikləri və elmi nailiyyətləri bir araya gətirmək, həmçinin mütəxəssislər arasında təcrübə mübadiləsi aparmaq məqsədi daşıdığını vurğuladı. M.Məmmədov bildirdi ki, bu tədbir həkimlərin peşəkar inkişafına müsbət təsir göstərərək, Azərbaycanda revmatologiyanın inkişafına yeni təkan verəcək, tibb sahəsində əhəmiyyətli dəyişikliklərə səbəb olacaqdır. O, həmçinin Azərbaycan Revmatoloqlar İctimai Birliyinin fəaliyyətinin ölkəmizdə revmatologiyanın inkişafına böyük töhfələr verdiyini də diqqətə çatdırdı. Zabit konqresdə iştirak edən revmatoloqların öz təcrübələrini bölüşmələrinin, yeni tədqiqat və diaqnostik metodları müzakirə etmələrinin mühüm əhəmiyyət




kəsb etdiyini bildirdi və konqresin əsas məqsədinin revmatoloqların davamlı təhsili, yeni diaqnostik və müalicə üsullarına yiyələnməsinin, elmi tədqiqatlara dəstək olmasının, eləcə də xarici həmkarlarla elmi-praktik əlaqələrin qurulmasının vacibliyini qeyd etdi.

Konqresdə iştirak edən 250-dən çox mütəxəssis, o cümlədən pediatr, kardioloq, endokrinoloq, ginekoloq, terapevt, travmatoloq, radioloq, genetik və digər ixtisas sahibləri elmi-praktik əlaqələr quraraq təcrübə mübadiləsi apardılar.

Sonra dəvət olunan qonaqların "Böyük damar vaskulitləri", "PAN+DADA-2 sindromu", "Makrofaq Aktivasiya Sindromu", "Avaskulyar nekroz", "Bahçet xəstəliyi, ağırlaşmalar və müalicə prinsipləri" və digər mövzularda çıxışları dinlənildi, suallar cavablandırıldı, ətraflı fikir mübadiləsi aparıldı.

Həm yerli, həm də beynəlxalq mütəxəssislərin əməkdaşlığını təmin etməklə, bu kimi mövzuların müzakirəsinin yeni müalicə metodlarının inkişafına töhfə verdiyi vurğulandı.

Tədbirin birinci günü revmatologiyanın ən aktual məsələlərinə dair çıxışlarla davam etdi, revmatoloji xəstəliklərin diaqnostikasında istifadə olunan texnoloji yeniliklərdən söhbət açıldı.



Konqresin növbəti günündə isə müasir təbabətin tələbi olan tibbi texnologiyaların istifadəsi ilə bağlı təqdimatlar keçirildi. Maqnit rezonans tomoqrafiya (MRT) və ultrasəs müayinəsi haqqında ətraflı müzakirələr aparıldı.

Tibb xidməti mayoru Məğrur Məmmədov onu da qeyd etdi ki, MRT-nin dayaq-hərəkət sistemini əhatə edən pozğunluqların diaqnostikasında ən effektli üsul olmasına baxmayaraq, bəzi məhdudiyyətlərə görə hər xəstə ondan faydalana bilmir. "Xüsusilə klanstrofobiyası, bədənində metal hissələri və kardiostimulyator olan xəstələr MRT-dən keçə bilməzlər. Bundan başqa, MRT-nin hər tibb müəssisəsində olmaması, nəticələrinin dərhal bilinməməsi kimi səbəblər ultrasəs müayinəsinin əhəmiyyətini artırır. Ultrasonoqrafiyanın ən böyük üstünlüyü ondan ibarətdir ki, diaqnoz xəstənin ambulator şəraitdə müayinəsi zamanı qoyulur. "Bir addımlı müalicə" adlanan bu üsulla xəstə həkim müayinəsindən keçərək müalicə ala bilir. Ultrasonoqrafiyanın MRT-dən ən mühüm üstünlüklərindən biri də dinamik görüntüyə imkan verməsidir. Ultrasəs cihazlarının müasir inkişafı oynaqların və yumşaq toxumaların detallı görüntülərini almağa imkan verir ki, bu da diaqnozun dəqiqliyini artırır".

Konqresdə, həmçinin əczaçılıq, tibbi avadanlıq və nəşriyyat şirkətlərinin stendləri nümayiş olundu. Bu stendlərdə iştirakçılara yeni məhsullar, dərmanlar və tibbi avadanlıqlar haqqında məlumat verildi.




Qeyd edək ki, 2022-ci ildə Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının revmatoloqlarının iştirakı ilə təsis edilən Azərbaycan Revmatoloqlar İctimai Birliyi ölkəmizdə revmatologiyanın inkişafına xüsusi önəm verir. Belə tədbirlərin təşkili Azərbaycanın səhiyyə sisteminin inkişafına, həkimlərin peşəkar bilik və bacarıqlarının artırılmasına, elmi-praktik əlaqələrin qurulmasına və revmatologiya sahəsindəki ən son yeniliklərin öyrənilməsinə imkanlar yaratmaqla yanaşı, bu sahənin inkişafına mühüm töhfələr verir.

Bu cür tədbirlərin davamlı olaraq keçirilməsi isə Azərbaycanın regionda revmatologiya sahəsində aparıcı ölkəyə çevrilməsinə istiqamətlənmiş mühüm bir addım olacaqdır.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

*Medallı igidlərimiz*

# “Tarixi zəfərin qazanılmasında iştirak etməkdən qürurluyam”

Azərbaycan Ordusunun düşmənin genişmiqyaslı təxribatının qarşısını alaraq, əks-hücum əməliyyatına keçməsi ilə başlayan və şanlı qələbə ilə yekunlaşan Vətən müharibəsindən artıq bir neçə il ötüb. Əlbəttə, bu tarixi qələbəni xalqımıza yaşadan igid döyüşçülərimiz olublar. Yüksək döyüş hazırlığına malik peşəkar hərbçilərimiz qorxu bilmədən irəliləyərək, torpaqlarımızı işğaldan azad ediblər.

İllər sonra işğaldan azad olunmuş torpaqlarımızda bu gün fəxarətlə xidmətini davam etdirən leytenant Sübhan Qurbanzadə ilə tanış olduq. Lənkəran rayonunun Girdəni kəndində dünyaya göz açan Sübhan Vətən müharibəsi iştirakçısıdır. Həyat yolunda seçim edərkən hərbçi olmaq seçimini edən Sübhan 2017-ci ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi ordu sıralarına daxil olub. Xidmətə başladığı ilk gündən intizamlı və nümunəvi olmağa çalışıb. Lazımi hərbi biliklərə yiyələndikdən sonra qəbul olunmuş qaydalara uyğun imtahanlardan keçərək, 2020-ci ildə "gizir" hərbi rütbəsi ilə xidmətini davam etdirib. Bilik və bacarıqları ilə komandirlərinin etimadını qazanaraq, "Ehtiyat zabit hazırlığı" kursuna göndərilib. 2022-ci ildən zabit kimi tabeliyində olan hərbi qulluqçuları bütün gücü və iradəsi ilə bacarıqlı Vətən müdafiəçilərini yetişdirməyə çalışır. Gənc zabit əsgərlərin döyüş qabiliyyətini və döyüş ruhunu, fiziki, atəş və mənəvi-psixoloji hazırlıqlarını artırması üçün əlindən gələni əsirgəmir. Şəxsi heyətə həm qardaş, həm də komandir olur. Gənc zabitin peşəkarlığı sayəsində əsgərlərimiz hərbi sirlərə yiyələnirlər.



"Bizim əsas vəzifəmiz əsgərlərimizi istənilən döyüş tapşırığının öhdəsindən gələ biləcək döyüşçülər kimi hazırlamaqdır. Onların fiziki, mənəvi-psixoloji, praktiki hazırlıqlı olmalarını daim diqqət mərkəzində saxlayırıq. Komandir və müəllimlərimizdən öyrəndiklərimizi onlara aşılayırıq. Çünki bu gün hərbin sirlərini öyrətdiyimiz hər bir əsgər döyüş meydanında çiyin-çiyinə döyüşəcəyimiz igidlər olacaqlar", - leytenant S.Qurbanzadə dedi.

"Hər bir hərbçinin arzusu olduğu kimi, mən də illər sonra işğaldan azad olunmuş torpaqlarımızda xidmət etdiyim üçün sevinirəm", - deyə zabit sözünə davam etdi. "Keçirdiyim hissi adi sözlərlə ifadə etmək mümkün deyil. Otuz ilə yaxın həsrətini çəkdiyimiz torpaqlarda tor şanlı bayrağımız dalğalanır. Bu gün illərdir səngərlərdən həsrətlə baxdığımız torpaqlarımızda xidmət edirik. Döyüşlərdən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə layiq görüldüyüm "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medallarıva baxdıqca, keçdiyimiz döyüş yolu gözümdə canlanır. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun tarixi zəfərin qazanılmasında iştirak etməkdən çox qürurluyam".

**Baş leytenant**
**Oruc MUSTAFAYEV,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Türkiyədəki helikopter qəzasında altı hərbçi şəhid olub

*Türkiyənin İsparta şəhərinin Keçiborlu rayonu ərazisində hərbi helikopter qəzaya uğrayıb.*

AZƏRTAC xəbər verir ki, hadisə İsparta Quru Aviasiya Məktəbinin təlim uçuşu zamanı iki helikopterin toqquşması nəticəsində baş verib. Helikopterlərdən biri qəzaya uğrayıb, digəri isə təhlükəsiz eniş edə bilib.

Türkiyənin Milli Müdafiə Nazirliyi altı hərbçinin həlak olduğunu açıqlayıb.

Hadisə ilə bağlı açıqlama verən İsparta valisi Abdullah Erin şəhid olanlardan birinin İsparta Quru Aviasiya Məktəbinin komandanı general-mayor (tuğgeneral) İsa Baydilli olduğunu bildirib.

Qəzanın başvermə səbəbləri hələ bəlli deyil. Hadisə yerinə təcili yardım və yanğınsöndürən qruplar göndərilib.

# Ulu Öndərin xatirəsi yad olundu






*Mingəçevir şəhərində Azərbaycanın Milli Qəhrəmanı Ruslan Muradovun adını daşıyan Texniki-Humanitar liseydə Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə xalqımızın Ümummilli Lideri, dünya şöhrətli siyasətçi Heydər Əliyevin vəfatının ildönümünə həsr olunmuş anım mərasimi keçirildi. Mərasimdə məktəblilər, müəllimlər, ictimaiyyətin nümayəndələri iştirak etdilər. Ulu Öndərin və şəhidlərin xatirəsi böyük ehtiramla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.*

Liseyin direktoru Nailə Məmmədova xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin memarı, qurucusu Heydər Əliyevin mənalı, zəngin həyatı, dövlətçilik fəaliyyəti, xalqımız, Vətənimiz qarşısında əvəzsiz xidmətləri haqqında ətraflı məlumat verdi. Bildirdi ki, Dahi Şəxsiyyət Vətənimizin tarixində genişmiqyaslı fəaliyyəti ilə böyük quruculuq işləri həyata keçirmiş, ömrünü Vətəninin, xalqının inkişafına həsr etmiş görkəmli dövlət xadimi kimi dünya siyasətçiləri sırasında önəmli yer tutmuşdur. "1969-1982-ci illərdə Azərbaycanı geridə qalmış kənd təsərrüfatı respublikasından qabaqcıl, sənaye, elm, təhsil, mədəniyyət, incəsənət mərkəzinə çevirmişdir. Onun hakimiyyətə gəlişi ilə Azərbaycanın həyatında yeni dövr başlanmışdır. Elmə, təhsilə xüsusi diqqət yetirən Ulu Öndər azərbaycanlı gənclərin xarici ölkələrdə təhsil almalarına xüsusi diqqət yetirmişdir. Eyni zamanda, böyük uzaqgörənliklə azərbaycanlı gənclərin ali hərbi məktəbdə təhsil almaları üçün zəruri tədbirlər həyata keçirmişdir. Böyük təzyiqlərə baxmayaraq Ulu Öndər ölkəmizin inkişafı üçün iri layihələrin həyata keçirilməsinə, Azərbaycanda ilk hərbi məktəbin açılmasına nail olmuşdur. Xalqımızın təkidli tələbi ilə 1993-cü ildə hakimiyyətə qayıdan Ulu Öndər böyük xilaskarlıq missiyasını həyata keçirərək dövlətçiliyimizi, müstəqilliyimizi qorudu, geniş islahatların həyata keçirilməsini təmin etdi. Ölkəmizə qarşı başlanmış, elan olunmamış müharibənin dayandırılması üçün təxirəsalınmaz tədbirlər həyata keçirdi. Düşmən ölkə ilə atəşkəs müqaviləsi imzalandı. Bundan sonra ölkəmizdə quruculuq işlərinə start verildi. İlk növbədə ictimai-siyasi sabitlik təmin olundu. Azərbaycanın dünyada nüfuzunu artıran əsrin müqaviləsi sayılan "Neft müqaviləsi" imzalandı. Bu, Vətənimizin, xalqımızın, dövlətimizin təhlükəsizliyinin təmin edilməsi üçün yeni bir mərhələnin başlanğıcı kimi qiymətləndirildi. Ordu quruculuğuna xüsusi diqqət yetirən Dahi Şəxsiyyət çox keçmədi ki, müstəqilliyin, dövlətçiliyin qarantı sayılan nizam-intizamlı, vahid komandanlığa tabe olan ordu yaratdı.

Yaxın və uzaq ölkələrlə əlaqələr möhkəmləndirildi. Ölkəmizin dünya miqyasında tanınması üçün islahatlar həyata keçirildi. Diplomatiya sahəsində onun rəhbərliyi ilə yeni uğurlar qazanıldı. Çox keçmədi ki, Ulu Öndər qətiyyətlə bildirdi: "Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

Ulu Öndərin təşəbbüsü ilə 1995-ci ildə müstəqil ölkəmizin ilk konstitusiyası qəbul edildi. Azərbaycan dünya miqyasında, regionda aparıcı ölkə kimi tanındı. Ulu Öndər tərəfindən işğal altında olan torpaqlarımızın düşmən qüvvələrdən azad edilməsinə hüquqi, hərbi cəhətdən də əsaslı təminat yaradıldı. Ermənistan dünya dövlətləri tərəfindən işğalçı ölkə kimi tanındı. Ölkəmizin iqtisadi-hərbi qüdrətinin daha da artırılması üçün Ulu Öndər tərəfindən yeni inkişaf strategiyaları həyata keçirildi.

Xalqın sevgisi və dəstəyi ilə 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Ulu Öndərin böyük siyasətini uğurla, qələbələrlə davam etdirir. O, artıq dünya miqyasında müdrik dövlət xadimi, siyasətçi kimi tanınmışdır. Onun müdrik rəhbərliyi, sərkərdəlik məharəti ilə şanlı ordumuz Vətən torpaqlarının 30 ilə yaxın davam edən işğalına son qoydu. Vətənimizin tarixinə qızıl hərflərlə Zəfər günü yazıldı. Bu böyük uğurların təməli də Ulu Öndər tərəfindən qoyulmuşdur. Onun ideyalarının həyata keçirilməsi ölkəmizə daha böyük qələbələr, uğurlar gətirəcəkdir".

Mərkəzin əməkdaşı Şəhla Abduləliyeva ölkəmizdə həyata keçirilən sosial siyasətin yaradıcısının da Ulu Öndər olduğunu diqqətə çatdırdı. Bildirdi ki, onun başladığı böyük işlər, həyata keçirdiyi islahatlar Müzəffər Ali Baş Komandan tərəfindən uğurla davam etdirilir.

Tədbirin sonunda Ulu Öndərin həyat və fəaliyyətinə həsr olunmuş sənədli film nümayiş etdirildi, "Əsgərə məktub" layihəsi çərçivəsində işğaldan azad edilmiş ərazilərdə xidmət edən Vətən müdafiəçilərinə qürur hissi dolu məktublar ünvanlandı.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# Doğma Cəbrayılımda dalğalanan şanlı bayrağımız uşaqlıq hisslərimin qələbə marşına bənzəyir



*Ordu sıralarımızda xidmət edən gənc zabit Röyal Cəfərov əslən Cəbrayıl rayonunun Karxulu kəndindəndir. Kiçik yaşlarından ata-baba ocağının, didərgin düşdüyü evinin həsrətini iliklərinə qədər hiss edib. Qismət elə gətirib ki, Röyal əsgər olarkən Aprel döyüşlərində iştirak edib. Talış kəndi istiqamətində gedən döyüşlər zamanı üzərinə düşən tapşırıqların öhdəsindən gəlməyi bacarıb. Uşaqlıqdan Vətən həsrətinin nə olduğunu anlayan əsgər Cəfərov üçün həmin döyüş onun gələcək taleyini müəyyən edib, ilk döyüş tapşırığını alandan hərbçi olmağı qarşısına əsas məqsəd qoyub.*

Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra sənədlərini "Gizir hazırlığı kursu"na təqdim edib. İmtahanı və sonra müvafiq kursu müvəffəqiyyətlə keçdikdən sonra ordu sıralarında gizir olaraq xidmətə başlayıb. 2016-cı ilin Aprel döyüşlərində əsgər kimi iştirak edən Röyal 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsinə gizir hərbi rütbəsində qatılır. 2023-cü ilin antiterror əməliyyatında isə artıq Röyal zabit idi. O, bütün döyüş əməliyyatlarında verilən tapşırıqların öhdəsindən bacarıqla gəlib. Leytenant Röyal Cəfərov söhbətində Vətən, yurd sevgisinin əvəzolunmaz hiss olduğunu vurğuladı.

"Vətən sevgisi ən ümdə hissdir. Bu hissi izah etmək üçün sözlər kifayətsiz və ya kəmiyyətsiz qalır. Uşaq yaşlarımdan evimizdə Cəbrayıl rayonunun, kəndimizin həsrətinin çəkilməsi ilə düşmənə qarşı nifrət hissim formalaşıb. Böyüdükdən sonra soydaşlarımızın başına gətirilən müsibətlərin qisasını alacağım, doğma Cəbrayılıma ayaq basacağım günün arzusunu dərk etdim və qarşıma məqsəd qoydum ki, ömrümü hərb peşəsinə bağlayım. Hərbi mundiri ilk dəfə əynimə geyindiyim gün həyatımın ən yaddaqalan günüdür. Xidmətimin və həyatımın dönüş nöqtəsi elə ilk dəfə döyüş tapşırığı aldığım 2016-cı ilin Aprel döyüşləri oldu. Həmin döyüşlər zamanı təcrübəli komandirlərimin, igid əsgər yoldaşlarımın gözündəki qisas elə mənim də istəyim idi. Bu gözləri 44 günlük haqq savaşımız zamanı da, 2023-cü ilin antiterror əməliyyatında da silahdaşlarım və komandirlərimdə gördüm. Bu gün isə gözlərimizdə işğaldan azad olunmuş Vətənimizin, orada dalğalanan şanlı bayrağımızın qüruru və şəhidlərimizin alınmış qisasından yaranan məğrur baxışlar var. Bu qüruru, məğrurluğu şərtləndirən amil güclü ordunun mənsubu olmaqdır, qalib ordunun sıralarında xidmət etməkdir", - leytenant R.Cəfərov dedi.

Düşüncələrinə sarılan gənc zabit şəhidlərimizdən də danışdı: "Qələbədən danışarkən, öz qanı ilə torpağı vətənləşdirən şəhidlərimizi də mütləq qeyd etməliyik. Çünki onlar hamımızın başının tacı, haqqı heç nə ilə ödənməyəcək Vətən övladlarıdır. Vətən uğrunda öldürməklə yanaşı, gözünü qırpmadan ölmək də vardır. Bir şəhidimiz sağ qalan minlərlə soydaşımızın qoruyucu mələyidir. Bunun üçün də hər birimiz şəhid qardaşlarımızı daim ən böyük ehtiramla anmalı, gələcək nəsillərimizə həmin qəhrəman Vətən övladlarını tanıtmalıyıq".

Sözlərinə davam edən Röyal ata-baba yurdu Cəbrayıl rayonundan da söz açdı: "Bir zamanlar düşmən əsirliyində olan doğma Cəbrayılımda dalğalanan şanlı bayrağımız uşaqlıq hisslərimin qələbə marşına bənzəyir. Bu qələbə torpaqlarımızın işğaldan azad olunduğu, şəhid soydaşlarımızın qisasının alındığı, ədalətin bərpa edildiyi haqq savaşımızın qələbəsidir. Bu qələbə daimi olacaq, bu qələbə gələcək nəsillər üçün vətənpərvərlik, igidlik dastanı olacaq. Adını qızıl hərflərlə tarixin silinməz səhifələrinə yazan qəhrəman döyüşçü qardaşlarımızın səlləfləri gələcəkdə onları özlərinə ilham mənbəyi biləcək, bununla da xalqımız hər zaman sülh və firavanlıq içində yaşayacaq, Vətənimiz isə bütöv olacaq", - deyən zabit söhbətini bitirdi.

Qeyd edim ki, leytenant Röyal Cəfərov 44 günlük Vətən müharibəsində göstərdiyi şücaətə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

**Kapitan**
**Fuad CƏFƏROV,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Pilotsuz uçuş aparatlarının (PUA) ordu və müasir dövrün müharibələri üçün verdiyi töhfə

Bütün innovativ texnologiyalar kimi, pilotsuz uçuş aparatları (PUA) da, ilk öncə sadəcə konseptual prototiplərdən ibarət olub. Günümüzdə müasir orduların əsas elementinə qədər uzun bir yol keçən bu texnologiya XX əsrin əvvəllərində ortaya çıxıb, ilk modelləri isə sadəcə sınaq və müşahidə məqsədləri üçün istifadə edilmişdir. İkinci Dünya müharibəsi zamanı hücum tipli PUA-lardan istifadə olunsa da, əksər modellərin rolu, ilk növbədə, kəşfiyyat vasitələri kimi köməkçi olaraq qalırdı.

Müasir hərbi texnologiyaların inkişafına ən çox təkan vermiş dövr sayılan Soyuq Müharibənin başlaması isə PUA-ların inkişafı sahəsinə yeni təkan verdi. Məsələn, Amerika Birləşmiş Ştatlarına məxsus Lockheed D-21 kimi strateji kəşfiyyat üçün nəzərdə tutulmuş ilk dronlar meydana çıxdı. Bu dron yüksək hündürlükdə kəşfiyyat uçuşlarının aparılması və uçuşun sonunda məlumat konteynerin göydən buraxılması üçün nəzərdə tutulmuşdur. 30 km-dən çox hündürlükdə və 2000 kilometrdən çox məsafədə M=3,6-dan çox sürətə çatan bu dron eniş edə bilmədiyi üçün təkrar istifadəsi nəzərdə tutulmurdu. Daha sonralar, təxminən 1980-1990-cı illərdə bu texnologiyanın daha mobil və miniatür olması istiqamətində aparılan islahatlar ilə PUA-lar hərbi



münaqişələrdə, o cümlədən Körfəz müharibəsində fəal istifadə olunmağa başladı və burada kəşfiyyat məlumatlarının toplanmasında effektivliyini bir daha sübut etdi.

XXI əsrdə PUA-lar rəqəmsallaşma, yüksək dəqiqlikli naviqasiya sistemlərinin və süni intellektin yaranması sayəsində yeni zirvələrə çatsa da, bu proses davam edir. Artıq PUA-lar sadəcə müşahidə xarakteri daşımır, hərbi qarşıdurmaların, hətta bütövlükdə əməliyyatların taleyini dəyişdirəcək gücə malikdir. Məsələn, Bayraktar TB2 və MQ-9 Reaper kimi hücum dronları döyüşlərin nəticəsini dəyişdirə bilən strateji silahlara çevrilib. Müasir PUA-lar kəşfiyyat, logistika, zərbələr və hətta kiberəməliyyatlar üçün geniş istifadə olunması, müasir orduların arsenalında mühüm yer tutduğunu tamlığı ilə izah edir.

Artıq anlamaq olar ki, pilotsuz uçuş aparatları (PUA) özünəməxsus xüsusiyyətlərinə və universallığına görə müasir hərbi strategiyada mərkəzi rol oynayır. Müasir dronlara sahib ordular əməliyyatların sürəti, dəqiqliyi və səmərəliliyi baxımından üstünlüyə sahib olur. Silahlanmada güclü PUA-ların olması həm də şəxsi heyət üçün riskləri azaldır ki, bu da dron texnologiyasının nə qədər əhəmiyyətli olduğunun göstəricisidir.

Bundan başqa, kəşfiyyat və müşahidə PUA-ları ərazinin istənilən zaman monitorinqi və real vaxt rejimində məlumatların toplanmasını təmin edərək, komandanlığa operativ və strateji qərarlar qəbul etməyə imkan verir. İnformasiyanın qızıl dəyərində olduğu dövrdə bu məlumatlar dinamik hərbi münaqişələrin taleyində xüsusilə vacibdir.

Hücum dronlarına gəldikdə isə, sadəcə hədəflərə dəqiq zərbələr endirməklə bitmir. Müasir ordu arsenalında bu tapşırıqlar üçün yüksək dəqiqlikli silahlar mövcuddur. Dronların üstünlüyü




çətin relyefli əraziləri və ya yaxşı mühafizə olunan obyektləri real zamanda müşahidə edərək zərbə endirmək və hədəfləri məhv etmək imkanıdır.

Bu, həm də təhlükəli tapşırıqların icrası zamanı pilotlu təyyarələri əvəz edərək, şəxsi heyət arasında həyati risklərin azalması ilə nəticələnir. Bununla yanaşı, dronlardan istifadə etmək ənənəvi aviasiyadan daha ucuz başa gəldiyi də aydın məsələdir. Daha böyük hərbi əməliyyatlarda və ya müharibələrdə hər ikisinin istifadəsi döyüş meydanında qələbə deməkdir.

Dronların üstünlüklərindən danışdıqda, onların psixoloji təsirini də unutmamaq lazımdır. Şəxsi heyətin döyüş ruhunun yüksək olması müharibələrin nəticəsini müəyyən edən əsas elementlərdəndir. Bu göstəricinin azalması isə fəlakətli nəticələrə səbəb ola bilər. Fərariliyə, effektivliyin azalmasına, yuxarı komandanlıqla qoşunlar arasında inamın itirilməsinə və əsgərlər arasında psixoloji travmaların yaranmasına səbəb ola bilər. Pilotsuz uçuş aparalarının (PUA) bu baxımdan da müsbət cəhətləri mövcuddur. Döyüş meydanında dronlar düşmənin döyüş ruhuna əhəmiyyətli dərəcədə təsir göstərə bilər. PUA-ların havada olması düşməndə daimi müşahidə altında olduğu hissi yaradır ki, bu da şəxsi heyət arasında qorxu yaradır. Hər an hücuma məruz qala biləcəyini anlayan əsgərlər öz hərəkətlərinə inamlarını itirirlər. Bundan başqa, düşmənin hərbi hədəflərinə və hərbi texnikasına dəqiq zərbələr endirmək, onun strateji hədəflərinin daimi müşahidə də saxlanılması düşmənin məğlubiyyət hissini daha da artırır. Beləliklə, PUA-lar müharibədə güclü psixoloji vasitə



olmaqla, düşmənin döyüş ruhuna mənfi təsir göstərir və döyüş əməliyyatlarında onun effektivliyini zəiflətməsinə kömək edir.

Bütün bu amillər onu göstərir ki, pilotsuz uçuş aparatları (PUA) müasir hərbi əməliyyatlarda müstəsna rol oynayır. Artıq süni intellekt, avtonom idarəetmə sistemləri və PUA-lar hərbi inkişafın yeni mərhələsidir. Bu inteqrasiya təkcə ölkənin müdafiə qabiliyyətini deyil, həm də bu ölkənin beynəlxalq arenada nüfuzunu artırmağa imkanlar yaradır.

Vətənimizdən danışdıqda vurğulamaq önəmlidir ki, Azərbaycan dünyaya pilotsuz uçuş aparatlarının (PUA) yeni dövrün müharibəsinə nə qədər böyük töhfə verdiyini nümayiş etdirdi.

Müasir münaqişələrin ayrılmaz hissəsinə çevrilən PUA-lar müharibə taktikasını dəyişdirərək, strateji məsələləri daha da əlçatan edir ki, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi bu fenomenin bariz nümunəsidir. Azərbaycan Ordusu müasir texnologiyalardan, xüsusilə də PUA-lardan səmərəli istifadə etmək bacarığını dünyaya nümayiş etdirdi. Misal olaraq, Türkiyə istehsalı olan "Bayraktar TB2" zərbə PUA-sı və İsrail istehsalı "Harop" kamikadze dronu bu müharibədə özünü yüksək şəkildə doğrultdu. Bayraktar TB2 düşmən tanklarını, artilleriya və hava hücumundan müdafiə mövqelərini məhv etmək üçün istifadə olunurdu. Harop kamikadze dronları da komanda məntəqələrini və radar sistemlərini məhv etmək üçün istifadə edilirdi. Bu zərbələrin video görüntüləri Müdafiə Nazirliyinin Mətbuat Xidməti tərəfindən paylaşılaraq, kütləvi informasiya vasitələrində də öz əksini tapırdı. Bu isə həm xalqımızı PUA-ların dəqiqliyi və dağıdıcı gücünə inandırır, ordumuza inamını artırırdı, həm də düşməni demoralizə edərək, bu texnologiyanın psixoloji təsirini sübuta yetirirdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev "Nasionalnaya oborona" jurnalına verdiyi müsahibəsində bu barədə demişdir: "Bayraktar TV2" PUA-larından istifadə İkinci Qarabağ müharibəsi zamanı hərbi əməliyyatların aparılmasında, Silahlı Qüvvələrin hücumuna dəstək verilməsində, yeni mövqelərin əldə olunmasında, həmçinin itkilərin minimuma endirilməsində Azərbaycana çox kömək etdi". Dövlət başçısının sözlərindən də anlamaq mümkündür ki, ordumuzun qazandığı bu Zəfər dünya hərbi əməliyyatlarında yeni dövrün başlamasının təcəssümü oldu. İkinci Qarabağ müharibəsindən sonrakı dönəmdə dünyanın bir çox ölkəsi hərbi strategiyasını yenidən nəzərdən keçirməyə başladı.

Deyilənlər nəzərə alınmaqla bəllidir ki, hal-hazırda da pilotsuz uçuş aparatlarının texnologiyası daha bir inkişaf mərhələsini yaşayır. Bu proses əsasən aparatların miniatürləşdirilməsi, avtonom sistemlərin inkişafı və süni intellekt (Aİ) inteqrasiyasının gücləndirilməsi istiqamətində aparılır.

Miniatürləşdirilmə deyildikdə ölçü və çəki azalması nəzərdə tutulur ki, bu da istehsal sərfiyyatını azaltmaqla yanaşı, idarəetməni daha intuitiv asanlaşdırır. Mikroelektronikanın, yüngül materialların və yığcam mühərriklərin inkişafı kiçik, lakin güclü PUA-lar yaratmağa imkan verir. Mümkündür ki, perspektiv gələcəkdə bizləri əsgərlər üçün cib dronlarının ("Black Hornet Nano" helikopter tipli mikro PUA-sı kimi) daha inkişaf etmiş versiyalar və yeni texnologiyalar da gözləyə bilər. Bu da şəhər mühitində kəşfiyyat üçün əlverişli imkanlar yaradır. Kiçik ölçülü dronlar da öz növbəsində portativ qurğulardan və ya əldən işə salınma imkanına sahib olduğu üçün daha rahat şəkildə istifadə oluna bilər.

Avtonom sistemlərin inkişafı isə əsasən naviqasiya sistemləri ilə əlaqəli nyuansdır. Təbii ki, müasir PUA-lar qlobal mövqe təyinetmə sistemi (GPS) və ətalət naviqasiya sistemi (İNS) ilə təchiz olunub ki, bu da onlara daimi operator nəzarəti olmadan tapşırıqları yerinə yetirməyə imkan verir. Avtonom marşrutlar və siqnalın itirildiyi təqdirdə bazaya qayıtması dronların etibarlılığını əhəmiyyətli dərəcədə artırır. Dronlar sensor və lidarların inteqrasiyası vasitəsilə isə maneələri avtonom şəkildə aşkar etmək və onlardan qaçmaq qabiliyyətinə sahib olur.

Günümüzdə hər kəsin dilində olan süni intellektə (Aİ) gəldikdə isə, onun PUA-lara inteqrasiyası geniş imkanlara gətirib çıxartmaqdadır. Bunlardan misal olaraq, hədəfləri avtomatik müəyyən etmək, ərazini təhlil etmək və düşmənin hərəkətlərini proqnozlaşdırmaq üçün böyük həcmdə məlumatları (video, termal görüntüləmə, radio ələ keçirmə) emal edərək, real vaxt rejimində təhlil etmək, avtonom qərar qəbul etmək və yeni şəraitə uyğunlaşmasını təkmilləşdirməkdir.

Miniatürləşdirmə, avtonomiya, süni intellekt və təkmilləşdirilmiş idarəetmə sistemləri kimi dron texnologiyalarında texnoloji irəliləyişlər pilotsuz təyyarələrin imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir və müasir silahlı



münaqişələrdə onları əvəzolunmaz edir. XXI əsrin əksər müharibə, habelə geniş və lokal hərbi əməliyyatlarında PUA-lardan geniş istifadə olunması da bunun əyani sübutudur. Suriya, İraq münaqişələri, İkinci Qarabağ müharibəsi və sair əməliyyatlarda PUA-lardan uğurla istifadə edilməsi onların hərbi əməliyyatların gedişatını dəyişdirmək üçün böyük potensiala malik olduğunu bəlli edir. Bu texnologiyanın istifadəsi, həmçinin hərbi əməliyyatların səmərəliliyini əhəmiyyətli dərəcədə artırmaq məqsədilə ordunun müxtəlif qolları arasında koordinasiyanı yaxşılaşdırdığını göstərdi.

Bununla belə, bütün üstünlüklərə baxmayaraq, PUA-ların istifadəsi bir sıra çətinliklərlə əlaqələndirilir. Əsas olanlardan biri radarlar və elektron hücumlara qarşı zəiflikdir. Mülki vətəndaşlar üçün riskləri minimuma endirmək və beynəlxalq standartlara riayət etmək üçün dronların istifadəsi ilə bağlı hüquqi və etik məsələlərini də nəzərdən keçirmək beynəlxalq ictimaiyyətin qarşısında duran vacib məqamdır.

Əgər konkret olaraq müharibə və hərbi əməliyyatlardan danışılırsa, o zaman PUA texnologiyasının gələcəyi, sözsüz ki, ümidverici görünür. Gələcəkdə daha avtonom, çoxfunksiyalı və yüksək səmərəli dronların inkişafını gözləmək olar ki, bu da milli təhlükəsizliyin təmin edilməsində və sülhməramlı missiyalarda daha da mühüm rol oynayacağı inamvericidir. PUA-ların müasir orduya və müharibəyə töhfəsini yüksək qiymətləndirmək şərtdir. Bu texnologiya təkcə döyüş əməliyyatlarının aparılması üçün effektiv vasitəyə deyil, həm də hərbi əməliyyatların həyata keçirilməsində maksimum çeviklik və dəqiqliyi təmin edən strateji və əməliyyat planlaşdırmasının mühüm bir hissəsinə çevrilib.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# Həmrəylik azərbaycançılıqdır!

*Xalq naminə, dövlət, dövlətçilik naminə eyni fikirlilik eyni amallılıqdır, eyni niyyətlilik həmrəylik. Niyyət eyniliyi mübarizə eyniliyi deməkdir. Tarixən belə olub, indi də belədir. Həmrəylik ötən əsrin sonlarında milli-azadlıq hərəkatının fəlsəfəsini, xalqın mübarizəsinin xarakterini müəyyənləşdirdi, milyonların mübarizəsinin uvertürası oldu. 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunması haqqında Konstitusiya Aktı qəbul olundu. Həmrəylik budur, həmrəyliyin nəticəsi budur!..*

"N" hərbi hissəsində "Həmrəylik azərbaycançılıqdır!" mövzusunda keçirilən disputda səslənən bu fikirlər əsgərlərin düşüncələrində arzulanan tərpəniş yaradır. Baş leytenant İbrahim Qurbanovun fikirləri maraqlı mahiyyəti ilə, düşündürücülüyü ilə diqqəti çəkir.

- Əsgər dostluğu da həmrəylikdir, manqanın şəxsi heyətinin Hərbi Nizamnamələrlə formalaşan həmrəyliyinin, manqaların həmrəyliyi bölüyün, bölüklərin həmrəyliyi taborun, nəticə etibarilə ordunun həmrəyliyidir. Ordunun həmrəyliyi Vətənin müdafiəsinin, dövlətə, dövlətçiliyə sədaqətin həmrəyliyidir.

Əsgərlərin baxışlarını bürüyən qürurun eynini İkinci Qarabağ müharibəsində müxtəlif döyüşlər ərəfəsində, müxtəlif döyüşlərdən sonra da görmüşdük. "Azərbaycan Ordusu" qəzetinin səyyar nəşrlərində bu qürurlar haqqında informasiyalar da dərc etmişdik. Bunu xatırladırıq. Müqayisəmiz əsgərlərə xoş gəlir, həm də belə bir mövzuda disputun gedişində! Tarixi Zəfər qazananların mənəvi davamçısı kimi tanınmağın qüruru onlarda tarixin dünənləri ilə bu günü, deməli, sabahlar arasında ayrılmaz ruhi həmrəylik yaradıb; Həmrəylik Gününə həsr olunmuş disput müqəddəs bir sevginin zərrələrindəndir. Bu sevgi həmrəylik biçimində Vətən sevgisidi!.. Kiçik çavuş Şirin Həşimov deyir ki, eyni məqsədlə, eyni niyyətlə Hərbi And içmişik, bizim həmrəy olduğumuzu bu and təsdiqləyir. Biz Vətəni də eyni sevgi ilə qoruyuruq.

Xoş ovqat yaranır. Azərbaycan əsgərinin Vətənə sevgisi müqəddəsliyə müqəddəs sevgidi. Bu sevgi əsgərlərin düşüncələrində, ürəklərində böyük sədaqətlə yaşadılır.

Baş leytenant İbrahim Qurbanov həmrəyliyin azərbaycançılığın tərkib hissələrindən biri olduğunu, həmrəyliyi məfkurə səviyyəsinə böyük tarixi şəxsiyyət Heydər Əliyevin yüksəltdiyini bildirir:

- Azərbaycan "Gülüstan" müqaviləsi ilə ikiyə bölünmüşdü. 90-cı illərdə Azərbaycanda milli-azadlıq hərəkatı genişlənmişdi. 1989-cu ilin dekabrın axırlarında Naxçıvanda İranla sərhəd dağıdıldı. 1989-cu il dekabrın 31-i dünya azərbaycanlılarının həmrəyliyi bayramı oldu. 1990-cı ildə Naxçıvanda bu günün ildönümü böyük coşqu ilə qeyd edildi. Bu hadisələr dünya azərbaycanlılarının həmrəylik niyyətinin rəsmi başlanğıcı kimi tarixləşmişdi.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Firuz Baxşəliyev deyir ki, ali məktəbə qəbul imtahanlarına hazırlaşanda mənbələrdən oxumuşdum ki, böyük tarixi şəxsiyyət Heydər Əliyev imperiyanın Bakıda törətdiyi faciəyə görə 1990-cı il yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyi qarşısında çıxışı azərbaycanlıların bu qətliama etirazının həmrəyliyi olub, minlərlə azərbaycanlı "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" qürurunu həyat amalı bilən Ulu Öndərin ətrafında birləşib, bu birləşmə həmrəylik kimi tarixləşib, xalqın adından səslənən fikirlər həmrəyliyin dönməzliyinin təsdiqi olub...

Ümummilli Lider Heydər Əliyev sovet hökumətinin Azərbaycana qarşı bu qəddar siyasətinə etiraz olaraq vəzifəsindən də istefa verdi, partiya sıralarından da çıxdı, çətinliklə də olsa Naxçıvana qayıtdı.

Bu xatırlatma əsgərlərin Azərbaycanda milli-azadlıq hərəkatının sonrakı mərhələləri haqqında fikirlər deməsində vəsilə olur. Disputun mövzusu ilə bağlı fikirlərdə deyilir:

- 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi.



Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 6 bənddən ibarət qərar qəbul etdi. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət edib. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul etdi. 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi rəsmi dövlət bayramı oldu...

Əsgər Elvin Əhmədli maraqlı bir fikir bildirir:

- Ulu Öndər Naxçıvan Respublikası Ali Məclisinin sədri olanda Azərbaycanın daha nurlu sabahları naminə, Azərbaycanın iqtisadi qüdrətinin yüksəldilməsi naminə, Azərbaycan elminin, mədəniyyətinin, incəsənətinin inkişafı naminə vətənpərvərlik duyğularının Vətən naminə səfərbərliyin - həmrəyliyin həyat, ömür fəlsəfəsi olduğunu bildirmişdi, dünya azərbaycanlılarının təşkilatlanması üçün həmrəylik gününün təsis edilməsini təklif etmişdi.

Əsgər fikrini Ulu Öndərin həmrəylik günü haqqında dedyi kəlamla tamamlayır: "Biz gərək milli mənliyimizi həmişə yüksəkdə saxlayaq. Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim həmişə məni bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə, istədiyim yolla gedə bilmişəm, istədiyimə nail ola bilmişəm və xalqıma xidmət edə bilmişəm. Ona görə milli mənliyimizi gərək itirməyək...".

Əsgər Rahid Fərəcli Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyinin təşkilati təsdiqi kimi 2001-ci ildə dünya azərbaycanlılarının Bakı şəhərində I qurultayının keçirilməsi haqqında Sərəncam imzaladığını xatırladır. 400-dən çox nümayəndənin iştirak etdiyi bu qurultayın mahiyyət baxımından həmrəylik olduğunu bildirir.

- Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü amalın günüdür, əqidənin günüdür. 365 günün birində rəsmən qeyd olunsa da, 365 gün düşüncələrdədi, əməllərdədi, niyyətlərdədi. Belə bir günün yaşanılan ilin son günü növbəti ilin başlanğıc günüdür, həm də həmrəyliyə yeni ehtiram gətirən gündür.

- Belə bir düşüncə hər bir azərbaycanlının azərbaycançılıq naminə yaşadığı mənəvi keyfiyyətlərdəndir, - deyirik. Əsgərlərin baxışlarında xoş bir ovqat görürük. Disputdan sonra həmrəyliyin qüdrəti kimi əlin əldə isinəcəyinə, sözün sözdən güc alacağına əminliyimizi də bildiririk.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə 2006-cı ildə dünya azərbaycanlılarının II qurultayı keçirildi. Bu, böyük tarixi şəxsiyyət Heydər Əliyevin siyasi kursuna, bu kursun müəyyənləşdirdiyi qərarlara sədaqətin ifadəsidir.

Azərbaycan xalqı və ordusu Ali Baş Komandanın sərkərdəliyi ilə İkinci Qarabağ müharibəsində tarixi Zəfər qazandı. Bu, həm də ordu ilə xalqın birliyinin - həmrəyliyinin Zəfəri kimi tarixləşdi...

Xatırladırıq ki, 2022-ci il aprelin 22-də Şuşada dünya azərbaycanlılarının V qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdi: "...biz hamımız - Azərbaycanda yaşayan azərbaycanlılar istəyirik ki, xaricdə yaşayan azərbaycanlılar öz tarixi Vətəni ilə sıx bağlı olsunlar...". Bu kəlamlar da həmrəyliyi şərtləndirən amillərdəndir və bu şərt milli-xəlqi ruhun yaşadılma andıdır. Həmin qurultayda çıxışında dövlət başçımız həm də dedi ki, "...biz Zəfər yolunu çəkmişik. Zəfər yolunu bizim əsgər və zabitlər ayaqla açdılar, o dağın, dərənin, meşənin içi ilə...". Bu xatırlatma mahiyyəti baxımından Vətən müharibəsinin tarixi ilə bağlı olsa da, bu günümüzlə də səsləşir: dünya azərbaycanlılarının həmrəyliyi Azərbaycan naminə siyasi maneələri də uğurla dəf edəcək...

- Ulu Öndər şeiri çox sevirdi. Xalq şairi Səməd Vurğunun "Azərbaycan" şeirini daha çox. Bu şeiri azərbaycanlıların azərbaycançılıq himni - həmrəylik şüarı bilirdi, - kiçik çavuş Şirin Həşimov belə deyir.

Onun sözünə qüvvət kimi əsgər Rüfət Səfərov deyir ki, şeir duyğularımızı incələşdirir, Ulu Öndərin şeirə bu sevgisi Vətənə sevgidi və biz də Vətənə sevgini həm də belə sevgidən öyrənirik. Əsgər nə vaxtsa oxuduğu bir şeiri də xatırladır:

- Şair bir əsgərin ürəyindən keçən gözəl fikri gözəl şeirləşdirib:

Ana təbiətə şükürlər deyir,
Yarpağın səsiylə həmrəy olanlar,
Budağın səsiylə həmrəy olanlar,
Əzəldən torpağa Vətən demişik,
Torpağın səsiylə həmrəy olanlar.
Dostumdu, əqidə dostumdu mənim,
Vətən sevgisiylə həmrəy olanlar!..

Əsgərin xatırlatdığı misraları həmrəylik haqqında əsgər andı bilirik: Vətən sevgisiylə həmrəy olanların ruhunu ruhuma qardaş bilirəm.

Gözəl fikirdi, yaşadılmalı fikirdi...

"Harada olursa olsun, azərbaycanlıların birlikdə, bərabər olması əsas şərtlərdən biridir. Biz çalışırıq ki, Azərbaycanın daxilində bütün qüvvələri toplayaq. Eyni zamanda, Azərbaycandan kənarda yaşayan azərbaycanlılar da öz qüvvələrini toplamalıdırlar. Ayrı-ayrı qüvvələrin, qrupların arasında fikir müxtəlifliyi ola bilər. Bu, təbii haldır. Ancaq Azərbaycanın müstəqilliyini qorumaq, ərazi bütövlüyünü saxlamaq üçün hamı bütün başqa fikirləri kənara qoyub birləşməli, bir hədəfə vurmalı, bir məqsədə xidmət etməlidir", - Ulu Öndər Heydər Əliyevin bu kəlamları dünya azərbaycanlılarının həmrəylik manifestidir.

Həmrəylik - azərbaycançılıqdır, azərbaycançılıq - beşərilik...

**Kapitan**
**Mahmud MÖHBALIYEV,**
**baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

## Hərbi vəzifəlilər ehtiyatda olduqları müddətdə hərbi təlim toplanışlarına necə çağırılacaqlar?

*"Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşda təsdiqlənib.*

AZƏRTAC xəbər verir ki, bu məsələ parlamentin dekabrın 10-da keçirilən iclasının gündəliyinə daxil edilib.

Qanun layihəsinə əsasən, hərbi vəzifəlilər ehtiyatda olduqları müddətdə hərbi təlim toplanışlarına aşağıdakı qaydada çağırıla bilərlər:

- birinci dərəcəli ehtiyatda olanlar - hər dəfə iki ayadək müddətə beş dəfəyədək, müvafiq icra hakimiyyəti orqanında həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış və müvafiq icra hakimiyyəti orqanının ehtiyatına keçirilmiş hərbi vəzifəlilər isə hər dəfə iki ayadək müddətə, lakin il ərzində bir dəfədən çox olmayaraq;
- ikinci dərəcəli ehtiyatda olanlar - hər dəfə iki ayadək müddətə üç dəfəyədək, lakin il ərzində bir dəfədən çox olmayaraq;
- üçüncü dərəcəli ehtiyatda olanlar - bir ayadək müddətə bir dəfə.

Qanun layihəsinə əsasən, ehtiyatda olan birinci dərəcəli uçuş heyəti bu maddədə göstərilən hərbi təlim toplanışları ilə yanaşı, birinci dərəcə üzrə ehtiyatda olma müddətində, habelə uçuş təlimi keçmək üçün hər dəfə 40 günədək müddətə beş dəfəyədək toplanışa çağırılacaqlar.

Dəyişikliyə görə, toplanışlara cəlb ediləcək hərbi vəzifəlilərin sayını müvafiq icra hakimiyyəti orqanının təqdimatı ilə müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Müvafiq icra hakimiyyəti orqanı toplanışlara cəlb edəcəyi hərbi vəzifəlilərin sayını müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla müəyyən edir.

Layihəyə əsasən, müvafiq icra hakimiyyəti orqanında həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış və müvafiq icra hakimiyyəti orqanının ehtiyatına keçirilmiş hərbi vəzifəlilərin toplanışlarda olmağının ümumi müddəti 30 aydan, ehtiyatda olan digər hərbi vəzifəlilərin toplanışlarda olmağının ümumi müddəti isə 18 aydan çox ola bilməz.

*Tarix yazan oğullar*

# Hər şəhidi ehtiramla anırıq

Vətənimizin ərazi bütövlüyü, suverenliyi uğrunda gedən Vətən müharibəsi Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin yüksək sərkərdəlik fəaliyyəti, fədakarlığı, xalq-ordu birliyinin yenilməzliyi, şanlı ordumuzun döyüş təcrübəsinin zənginliyi ilə Zəfərlə başa çatdı. Qələbə Vətənə, xalqa, dövlətçiliyə sədaqətini, vətənpərvərliyini, dünyada tarixi haqq-ədalətin bərpasının mümkünlüyünü, xalqımızın polad iradəyə sahib olduğunu nümayiş etdirdi.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Vətən övladlarının xidmətini yüksək qiymətləndirərək, şanlı ordumuzun əsasını təşkil edən gənclərin vətənpərvərliyinin, döyüş ruhunun və əzminin böyük olduğunu xüsusi vurğulayaraq deyib: "Bugünkü gənclər müstəqillik dövründə böyümüş, tərbiyə almış gənclər bizim üçün qürur mənbəyidir... Azərbaycanın gələcək inkişafı gənclərin əlində olmalıdır. Gənclər bilikli, savadlı, peşəkar və vətənpərvər olmalıdırlar".

Müzəffər Ali Baş Komandan tərəfindən gəncliyə göstərilən böyük etimad həmişə özünü doğruldub. Xalqımızın tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbə deyilənlərin əyani sübutu, təsdiqidir. Minlərlə gənc Vətən müharibəsində torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda haqq savaşına atıldı. Vətən üçün canlarını fəda etməkdən çəkinmədi. Yüzlərlə gənc şəhidlik zirvəsinə ucaldı. Onlar ölmədilər, Vətən uğrunda göstərdikləri şəxsi igidlik, vətənpərvərlik, rəşadət və fədakarlıqları ilə əbədiyyətə qovuşdular. Şəhidlərimizin əziz xatirəsi xalqımızın qəlbində daim yaşayacaq. Belə mərd oğullardan biri də Asif Yolçu oğlu Qocayevdir. Bütün bunlar barədə onun xatirəsinə həsr olunmuş anım günündə ətraflı danışıldı.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü və müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin xatirəsi yad olundu.

Sonra Asif Qocayevin həyat və döyüş yolu haqqında məlumat verildi. Bildirildi ki, o, 1991-ci ilin martında Gəncə



şəhərində anadan olub. Vətənə, xalqa dərin məhəbbət hissi ilə böyüyüb, vətənpərvər gənc kimi yetişib. 26 saylı orta məktəbdə təhsil alıb. Vətənpərvərlik tədbirlərində həmişə yaxından iştirak edib. Azərbaycanın qədim və zəngin qəhrəmanlıq tarixinə böyük maraq göstərib.

Xalqımıza qarşı törədilən faciələrə, itkilərə biganə qalmayan Asif Vətənin keşiyində dayanan oğulların sırasında olmağı qarşısına məqsəd qoyur. 2009-cu ildə yaxınları, doğmaları onu hərbi xidmətə yola salırlar. O, Vətənə, xalqa sədaqətli əsgər olacağına, qəhrəman oğulların davamçısı kimi xidmət edəcəyinə söz verir. Hərbi Andı qəbul etdiyi günü həyatının ən unudulmaz günü kimi qiymətləndirirmiş Asif.

Asif Qocayev hərbi hissədə də çalışqan, bacarıqlı nümunəvi əsgər kimi tanınır. Silahdaşlarını da həmişə buna sövq edir. Komandanlığın rəğbətini qazanır. Fəxri fərmanla, qiymətli hədiyyələrlə mükafatlandırılır. Ordu həyatından ayrılsa da, igid oğulların sırasında işğalda qalmış torpaqlarımızın azadlığı uğrunda döyüşlərə həmişə hazır olacağını qətiyyətlə bildirir. Nə vaxtsa haqsızlığa, ədalətsizliyə şanlı ordumuz tərəfindən son qoyulacağına onda böyük inam hissi olub.

Asif hərbi xidmətdən tərxis olunduqdan sonra çalışdığı sahədə də kollektivin rəğbətini qazanır. Hərbi xidmətdə olduğu kimi, nizam-intizamlı kollektivin ən fəal üzvlərindən biri kimi tanınır. 27 sentyabr 2020-ci ildə Müzəffər Ali Baş Komandanın əks-hücum əmri ilə İkinci Qarabağ müharibəsi başlayanda Asif Qocayev də könüllü olaraq döyüşçülərin sırasına qatılır. Asif əsl Vətən fədaisi, məharətli döyüşçü kimi döyüşürdü. 8 noyabr 2020-ci ildə Asif Qocayev Şuşa döyüşlərində yaralı əsgər yoldaşını xilas edərkən düşmən gülləsinə tuş gəlir, canından çox sevdiyi Vətən uğrunda şəhidlik zirvəsinə ucalır. Gəncə şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub. Asifin iki övladı - Xədicə və Məryəm Vətənə əmanət qalıb. Onlar ataları ilə qürur hissi keçirirlər. Çünki Asif Qocayev də qəhrəmanlıq tarixi yazanların sırasındadır.

Tədbirdən sonra Şəhidlər xiyabanında Asif Qocayevin məzarı ziyarət olundu və üzərinə güllər düzülərək xatirəsi yad olundu.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Hərbi xidmət müqəddəs borcdur



Hərbi xidmət hər bir gənc üçün həm şəxsi inkişaf, həm də vətəndaşlıq borcunun yerinə yetirilməsidir. Bu müqəddəs vəzifəni yerinə yetirən əsgərlər yalnız hərbi xidmətlə məhdudlaşmır, eyni zamanda, cəmiyyətə də xidmət edərək Vətənə olan sədaqətlərini göstərirlər. Nümunəvi xidmət göstərən əsgər həm öz şəxsi keyfiyyətləri, həm də Vətənə olan sevgisi ilə digərlərini təmsil edir. Nümunəvi əsgər sadəcə vəzifəsini yerinə yetirməklə kifayətlənməz. Onun hər bir hərəkəti, davranışı və düşüncəsi nümunəvi xidmətini tamamlamalıdır. Bu, hər bir tapşırığı vaxtında və düzgün yerinə yetirmək, həmçinin komanda yoldaşları ilə əlaqələri düzgün şəkildə qurmaq deməkdir. Nümunəvi xidmət edən əsgərlərdən biri də Kamal Əliyevdir.

Əsgər Kamal Əliyev 22 may 2006-cı ildə Cəlilabad rayonunun Göytəpə kəndində anadan olub. Gənc yaşlarından Vətənə sevgi və sədaqət duyğusu ilə böyüyən Kamal 2024-cü ildə hərbi xidmətə çağırılıb. Xidmətə gəldiyi gündən öz nümunəvi davranışları ilə əsgər yoldaşlarının rəğbətini qazanıb. Əsgər K.Əliyev Vətənə olan dərin sevgisi ilə hərbi xidmətə gəlib. Göytəpə kəndinin vətənpərvər insanlarının əhatəsində böyüyən Kamal hələ uşaq yaşlarından Vətəninin təhlükəsizliyi və inkişafı üçün nələrsə etməyi düşünürdü. O, hərbi xidmətini bir vəzifə deyil, müqəddəs bir borc kimi qəbul edib.

Xidmətinə ciddi, intizamlı və vətənpərvər yanaşması ilə həm komandirlərinin, həm də əsgər yoldaşlarının hörmətini qazanmışdır. K.Əliyevin xidməti müddətində göstərdiyi yüksək əxlaqi keyfiyyətlər milli-mənəvi dəyərlərə sədaqət ruhunda tərbiyə aldığının göstəricisidir. Onun nümunəvi xidməti komandirləri tərəfindən dəfələrlə qiymətləndirilib. Kamalın hərbi xidmətdə qazandığı təcrübə gələcəkdəki həyatı və xidmətləri üçün mühüm zəmin yaratmışdır. Kamal kimi gənclərin hərbi xidmətdə bacarıqlı əsgər kimi formalaşması, vətənpərvərliyi, ordumuza bağlılığı Azərbaycan gənclərinin hərbi xidmətə olan rəğbətinin bir daha bariz nümunəsidir. Bu cür gənclərin varlığı Azərbaycanın gələcəyinin işıqlı olduğunun əyani sübutudur. Onun xidmətini yalnız bir başlanğıc kimi görmək olar. Əminliklə deyə bilərik ki, Kamal gələcəkdə də həm özünün, həm də Vətəninin inkişafına böyük töhfələr verəcək bir şəxsiyyət olaraq yetişəcəkdir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Şəhidlərimizin döyüş yolu hər birimizə örnəkdir

Tarix öz qəhrəmanlarını heç vaxt unutmur. Azərbaycan torpaqlarında doğulan hər bir igid Vətənin bir parçası olur. Bu torpaqlar tarix boyu həm şəhidlərin qanı ilə müqəddəsləşib, həm də onun keşiyində dayanan əsgərlərin vəfası ilə qorunub.

Cəlilabadın Çünzəli kəndində dünyaya göz açmış əsgər Hacı Qasımlı da bu müqəddəs vəzifəni sevgi və qürurla yerinə yetirən hərbi qulluqçulardan biridir. Hacının həyat yolu elə bir mənbədən qidalanır ki, orada vətənpərvərlik dəyərləri ön sırada gəlir. Onun yaxın qohumu olan gizir Nəcməddin Quliyev 2023-cü ilin sentyabrında antiterror əməliyyatında şəhid olub. Yaxın qohumunun şəhid olması xəbərindən sonra Hacının həyat fəlsəfəsində Vətənə bağlılıq və ona verilən dəyər tamam fərqli məqamlara yüksəlib. 6 aylıq xidməti dövründə Hacı nümunəvi olmağa can atıb. Komandir heyəti onun əmr və tapşırıqlara məsuliyyətli yanaşmasından, yoldaşlarına olan səmimi münasibətindən məmnunluq ifadə edib.

Söhbətimiz zamanı əsgər H.Qasımlı "Hərbi xidmət sizin üçün nə deməkdir?" - sualını bu cür cavablandırdı. "Hərbi xidmət mənim üçün bir məktəbdir. Burada yalnız hərb elmini deyil, həm də intizamlı, məsuliyyətli olmağı öyrənirəm. Hər gün başa düşürəm ki, xidmət etdiyim bu torpaqlar sadəcə coğrafi bir ərazi deyil, şəhidlərin qanı ilə müqəddəsləşmiş, xalqın gələcəyini daşıyan bir dəyərdir. Mənim üçün hərbi xidmət, özümə və Vətənimə güvənməyi, öz yurdumu qorumağı öyrəndiyim bir həyat təcrübəsidir". Hacı xidməti dövründə qazandığı təcrübələrdən də danışdı: "Xidmətim zamanı çox şey öyrəndim. Əsasən, intizamın, komandada birlik ruhunun nə qədər vacib olduğunu dərk etdim. Hərbi biliklərlə yanaşı, insana mənəvi güc də lazımdır. Burada qazandığım dostlar, komandirlərdən öyrəndiklərim məni daha dözümlü və məsuliyyətli etdi. Mənə görə, hərbçi olmaq yalnız bir peşə deyil, həm də bir həyat yoludur. Əgər ehtiyac yaranarsa, Vətən üçün hər zaman döyüşməyə hazıram. Şə-



hidlərimizin adını yaşatmaq, onların yolunu davam etdirmək mənim üçün həm borc, həm də vəzifədir".

Hacı müqəddəs bir amalın, vətənpərvər bir ruhun daşıyıcısıdır. Onun kimi gənclərin xidməti, Azərbaycan Ordusunun güclənən və yenilənən simasının bir zərrəsidir. Onların hər addımında bu torpağa sevgi, hər əməlində Vətənə sadiqlik hiss olunur. Şəhidlərin ruhu torpağı qoruyan hər bir əsgərin yoluna işıq saçır. Hacı bu işığı özündə daşıyır, hər gün odunda alovlanır və hər an onu əbədiyaşar edir. Onun simasında bu gün vətənpərvərlik dəyəri gənc nəsillərə bir örnək, gələcəyimiz üçün möhkəm təməl olur. Hacı kimi gənclərimizin xidmət yolu hər bir əsgərin qəlbində Vətən sevgisini necə yaşatdığının parlaq nümunəsidir. Çünzəli kəndinin şəhidlərinin müqəddəs əmanətini qoruyan və onların ideyalarını gələcəyə daşıyan bu gənc hər bir vətənpərvər əsgər kimi bu ali missiyanın layiqli təmsilçisidir.

**Eltun MƏMMƏDOV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Əbədiyyət işığı

***Böyük tarixi şəxsiyyətlər tarixi xalqının, xalqına məxsus dövlətin daha aydın sabahlarına istiqamətləndiməyi bacarır. Bu səbəbdən də tarixdə yaşadılır, ürəklərdə yaşadılır, ədəbiyyatda yaşadılır. Ona həsr edilən əsərlər təkcə sevginin ifadəsi deyil, bu şeirlər, poemalar bəşəriliyə ehtiramın təzahürüdür - böyük tarixi şəxsiyyətlər təkcə öz xalqının deyil, dünyəvi diləklərlə yaşayan xalqların da mənəviyyat dünyasının işığı olurlar...***

***Müasir Azərbaycan dövlətçiliyinin memarı böyük tarixi şəxsiyyət Heydər Əliyev zaman-zaman belə bir sevgi ilə xatırlanacaq - yaşadılacaq. Tarixdə də, yaddaşlarda da, ədəbiyyatda da - poeziyada da...***

**"Azərbaycan Ordusu"**

**Xəlil Rza Ulutürk**

## Dədə Heydər - Atatürk

Azadlıq allahı tək əyləşib öz yerində,
Yerin-göyün nuru var peyğəmbər
gözlərində.
Sadəliyi nur saçır, əzəməti dərində.
Gedir, polad çiynində Kəpəz,
Qoşqar boyda yük.
Dədə Heydər - Atatürk.

Dərin mavi gözləri sakit yanan
od-ocaq,
Alovunda satqınlar yanacaq, kül olacaq.
Qaranlıqda işıqdır - o işığa yol açaq.
Məsləki varlığından böyükdür,
min qat böyük.
Böyüklük heykəlidir
Dədə Heydər - Atatürk!

Dörd tərəf qar-qiyamət, sərt qış...
o, güllü yazdır,
Dinc, mülayim səsi də
qaynar bir ehtirasdır.
Ərzurumdan Xəzərə şığıyan
Xan Arazdır.
Dalğasında dönüklər ağ köpükdür,
boz köpük,
Dalğalanır nəhr tək
Dədə Heydər - Atatürk.

Azərbaycan, Türkiyə...
Daş qala - qoşa səngər,
Bütün qasırğalara birləşməklə sinə gər.
Bu birlik qarşısında düşmən
tük salacaq, tük...
Qucur iki sahili
Dədə Heydər - Atatürk.

**Fikrət QOCA**

## Vətən oğlu

Vətən oğlu, ata oldun bizə sən,
Ata kimi qayğımızı çəkirdin.
Şair kimi həssas idin sözə sən,
Danışıqda sözdən sözü çəkirdin.

Ölkə olduq sən arzuna çatanda,
Bir əlin od, bir əlin su olurdu.
Millət rahat xumarlanıb yatanda,
Yuxun bir an quş yuxusu olurdu.

Yurdumuzda şan-şöhrətli hər nə var
Yatmadığın günlər, aylar, illərdi;
Ziyarətə gəlir səni bu yollar...
Göz yaşımız məzarında güllərdi.

Sənin rəmzin Azərbaycan bayrağı,
Baş qoymağa, can verməyə hazırıq.
Dan ulduzum - yurdumuzun mayakı,
Şeir də bir təsəllidir, yazırıq.

Adın-sanın yenilməz bir ordudu,
İndi odlar diyarının özüsən...
Azərbaycan Heydərlərin yurdudu,
Gələcəyə baxanların gözüsən.

**Nəriman HƏSƏNZADƏ**

## Ulu Öndərə ilk görüşdə oxunan şeir

Ey eşqim, vüqarım, sənətim, canım,
Ana çağırdığım Azərbaycanım!
Açıb qollarımı mehri-ülfətlə,
bağrıma basıram səni hörmətlə.

Sən də, ey adıyla fərəhləndiyim,
görəndə, sevinib ürəkləndiyim,
xalqımın istəkli, əziz övladı,
şeirimin-sözümün qolu-qanadı!

Sənin hər istəyin, sənin hər arzun
həyatda qoy, şöhrət çələngi olsun.
Qaldırdın adını bu məmləkətin,
andın müqəddəsdi, südün təmizdi.
Mənim taleyimdi sənin şöhrətin,
tarixdə tarixi mərhələmizdi.

Gəlin, addımlayaq sıx cərgələrlə,
gəlin, qabaqlayaq dövrü, zamanı.
Daim alqışlayaq yalnız Zəfərlə
Ana dediyimiz Azərbaycanı!

**Zəlimxan YAQUB**

## Həyat onu sevirdi...

Kəskin zəka, iti göz, ayıq baş,
aydın fikir,
Siyasət dünyasında
sağlam toxumlar əkir.
Baxışlarda sual var: Alimdi,
yoxsa rəssam?
Şairdi, yoxsa memar?
Memar ilə danışır kərpiclə daş dilində,
Heykəl ilə danışır heykəltaraş dilində,
Nəğməni dilləndirir şux nəğməkar dilində.
Zirvəylə qar dilində,
Budaqla bar dilində.
Muğamlara baş vurur
görəndə xanəndəni,
Allah belə yaradır çox sevdiyi bəndəni.
Açılardı dilində elmin dərin qatları,
Göylərə baş vurardı fikrinin qanadları.
Torpaqla danışardı sarı bülbül dilində,
Çəməndə danışardı çiçəklə gül dilində,
Həyat onu sevirdi, o həyatı sevirdi.
Bir ömürdə bu insan
görün nələr yaratdı,
Bulaq çəkdi, "İç!", - dedi,
Körpü saldı, "Keç!", - dedi,
Qanad verdi, "Uç!", - dedi.
Mən saldığım körpüdən
keçməyi bacarmasan,
Mən çəkdiyim bulaqdan
içməyi bacarmasan,
Mən verdiyim qanadla
uçmağı bacarmasan,
Daha məndən incimə,
özündədi "Suç!", - dedi.
Tanrı kimi tapındı mənalı ömürlərə,
Mənasız keçən ömrə yalan dedi,
puç dedi.
Ağac əkdi "Barını şirin-şirin dər" - dedi,
Şəhər saldı "Bu işdə gücünü göstər!" -
dedi.
Sinəsi sipər oldu, ürəyi çəpər oldu,
Yer üzündə şöhrəti o qədər yüksəldi ki,
Göy üzündə mələklər alnından
öpər dedi.
Torpağın qucağında qurmağı,
yaratmağı,
Göylərdə yeddi rəngi,
yeddi qatı sevirdi,
Həyat onu sevirdi, o həyatı sevirdi...

**Dədə ŞƏMŞİR**

## Heydərin

Möhürlə yazılıb xalqın qəlbinə,
Silinməz tarixdən adı Heydərin.
Qəhrəman ellərdən alıb dərsini,
Belə böyük var ustadı Heydərin.

Sədarət daşını bu yerdən atıb,
Nurla məhəbbəti bir-birə qatıb.
Ötüb beş milyonu, altıya çatıb,
Oğlu-qızı - öz övladı Heydərin.

Edir naxələfin ömrünü təbah,
Gülür xalqın üzü, daha çəkmir ah.
Qaranlıq gecəni eyləyib sabah,
Şəmşir, bizə var imdadı Heydərin.

**Rüfət AXUNDLU**

## Ulu Öndər

İlahinin bəxş etdiyi nur olmusan
bu millətə,
Lazım olan bir məqamda sarılmısan
bu millətə.
Bu milləti sevə-sevə vurulmusan
bu millətə,
Əsl eşqin, məhəbbətin izahısan,
Ulu Öndər!

Tarix yazan, tarix olan şir əsgərin,
nər əsgərin!
Düşməninə kabus kimi, dönməz, igid,
ər əsgərin!
Gecə-gündüz ayıq-sayıq keşik çəkən
hər əsgərin,
Öpüb, sonra tuşladığı silahısan,
Ulu Öndər!

Müzəffərdir, "dəmir yumruq" sahibidir
əmanətin.
Bütün dünya gördü onun iradəsin,
cəsarətin.
Çox uğurla davam edir uzaqgörən
siyasətin.
Sən bu xalqın xoş anısan, rifahısan,
Ulu Öndər!

Anam deyib, Vətənini oxşayan
hər vətəndaşın,
Vətən dərdi, Vətən yükü daşıyan
hər vətəndaşın.
Dünyanın dörd tərəfində yaşayan
hər vətəndaşın,
Dünənisən, bu günüsən, sabahısan,
Ulu Öndər!

# Müdafiə Nazirliyinin və Səhiyyə Nazirliyinin birgə məlumatı

Son günlər ölkəmizdə qış mövsümündə havanın temperaturunun aşağı düşməsi ilə əlaqədar mövsümi xarakter daşıyan respirator virus infeksiyalarına yoluxma hallarının artması ehtimalı yaranır. Bununla əlaqədar adaptasiya dövründə olan gənc əsgərlərin sağlamlığının qorunması məqsədilə hərbi hissələrdə onlarla görüşə müvəqqəti məhdudiyyət qoyulub.

Hərbi hissələrin qapalı və ictimaiyyətlə məhdud ünsiyyət şəraitində olması komandir-rəis heyəti və hərbi tibb personalı tərəfindən hərbi qulluqçuların sağlamlığının qorunması məqsədilə effektiv qabaqlayıcı tədbirlərin keçirilməsinə imkan yaradır. Şəxsi heyətlə maarifləndirici söhbətlərin aparılması, onlara düzgün qidalanma və fərdi gigiyena qaydalarının, gündəlik fəaliyyətlər zamanı kompleks profilaktik tədbirlərin vacibliyinin çatdırılması sayəsində yoluxma hallarının qarşısının alınması təmin edilir.

Respirator virus infeksiyalara yoluxma hallarının qarşısının alınması məqsədilə görülən tədbirlərin effektivliyinin təmin edilməsini nəzərə alaraq ictimaiyyətdən hərbi qulluqçularımızın sağlamlığına həssaslıqla yanaşmağı, qeyd olunan məhdudiyyəti anlayışla qarşılamağı və hərbi hissələrə gəlməməyi xahiş edirik.

# Ehtiramın ifadəsi olan şeir



***"Azərbaycan Ordusu" qəzetində dərc edilən məqalələrin başlıca mahiyyəti vətənpərvərlikdir.***

***Qəzetimizə müxtəlif yaş qruplarına, müxtəlif vəzifəyə, müxtəlif səviyyədə təhsilə malik olanlardan məktublar alırıq. İkinci Qarabağ müharibəsindən sonra aldığımız məktublarda şəhidlərimizdən də yazılmış məqalələr, ehtiramlı fikirlər, şeirlər olur. Sevinc Həsənovanın şəhid Seymur Məmmədliyə həsr etdiyi şeir yeniyetmənin vətəndaşlıq qürurunu, şəhidə - şəhidliyə ehtiramını ifadə edir. Şeir oxunaqlıdır, düşündürücüdür...***

**"Azərbaycan Ordusu"**

## Şəhid adı ilə yaşayacaqsan!

***Şəhid Seymur Məmmədliyə***

Siz Vətən yolunda döyüşürdünüz,
Qeyrətin torpağın sipəri oldu.
Sizin döyüşünüz müharibədə
Qara gecələrin səhəri oldu.

Ruhun rahat olsun, Seymur qardaşım,
Tarix yazanların sırasındasan.
Uca zirvədədir sənin də ruhun,
Şəhid adı ilə yaşayacaqsan!

**Sevinc Həsənova**
**20 saylı orta məktəbin VIII sinif şagirdi**

**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Lalə HÜSEYNOVA

Lisenziya № 361
Sifariş № 758
Nüsxə 4650